AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNİN PROQRAM-APARAT KOMPLEKSİNİN İSTİFADƏSİ ÜZRƏ TƏLİMAT

I Ümumi müddəalar:

Azərbaycan Turizm və Menecment Universitetində İKT məlumatlarının idarə olunması və informasiya təhlükəsizliyinin qorunması, Azərbaycan Respublikasi İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında qanuna və ATMU-nun daxili qaydalarına əsasən formalaşdırılmışdır.

II Proqram-aparat kompleksinin istifadəsi üzrə istifadəçilər üçün zəruridir:

2.1 Kompüter, ofis texnikası və şəbəkə avadanlıqları ilə Azərbaycan Turizm və Menecment Universitetinin (bundan sonra, ATMU) daxilində işləyən hər bir istifadəçinin cari təlimatlara əməl etməsi;

2.2 Bu təlimat istifadəçilər üzrə əhatə dairəsini müəyyənləşdirilməsi, ATMU daxilində istifadəçilərin proqram-aparat kompleksinin istifadəsi üzrə zəruri məlumatların müəyyən edilməsi, istifadəçilərin hüquqlarını, qadağan olan davranışları, məsuliyyət və kompüterdə işin yekununa dair təhlükəsizliyi müəyyənləşdirilməsi və hazırlanan yekun məlumatların ATMU-nun əməkdaşlarına bildirilməsi; (Bu təlimat bütün iş yerlərində keçərlidir.)

2.3 Kompüter, ofis texnikası və şəbəkə avadanlıqları ilə işləmək üçün müvafiq (proqram və aparat təminatı) bilik və vərdişlərlərə malik olmalı;

2.4 Kompüter, ofis texnikası və şəbəkə resursları ilə işləmək üçün vacib olan biliklərin daima artırılması, təşkil olunan təlimlərdə iştirak edilməsi;

2.5 İnformasiya təhlükəsizliyinin əsas aspektləri – konfedensiallıq, tamlıq və əlçatanlığın qorunmasında iştirak edilməsi;

2.6 İstifadəçiyə məxsus hesabların istifadəçi adının və məxfi şifrələrinin yadda saxlanılması;

2.7 İşə başlamazdan əvvəl sistemdə qeydiyyatdan keçməyin zəruriliyi;

2.8 Yaradılmış və mövcud sənədləri müəyyən edilmiş kataloqda və ya ona ayrılmış şəbəkə resurslarında saxlanılması;

2.9 Məlumat bazasını və işlək faylları lokal disklərə, şəbəkə disklərinə, optik disklərə və yaddaş qurğularına müntəzəm olaraq rezerv kopyalanması, müvafiq qurğuların seyfdə saxlanılmasının təhlükəsizliyi;

2.10 Resurslarla işləmə qaydalarına riayət edilməsi;

2.11 Həvalə olunmuş resurlarla iş zamanı yaranan problemlər barədə İT şöbəsinə müraciət edilməsi;

2.12 İstifadəçiyə məlum olan hesabların məxfi şifrələrinin yayılmaması;

2.13 İş yerində olmadıqda məlumat bazası və serverlə işləyən proqramları bağlanması, iş yerinə qayıdana qədər istifadəçi hesabının kilidli saxlanılması;

2.14 İT şöbəsinin kompüterlərin düzgün istismarına yönəlmiş göstərişlərini yerinə yetirmək, kompüter və qurğularla iş üçün İT şöbəsinin məsul şəxsinə maneəsiz şərait yaradılması;

2.15 Kənar şəxslərdən quraşdırılmış avadanlıq və qurğuların qorunması.

III Proqram-aparat kompleksinin istifadəsi üzrə istifadəçilərin hüquqları:

3.1 Müəyyən olunmuş qaydalarla ona həvalə olunmuş kompüter, ofis texnikası və şəbəkə resurslarından istifadə edilməsi;

3.2 Ehtiyac yarandığı təqdirdə kompüter və lokal şəbəkənin işinin yaxşılaşdırılması ilə əlaqədar təkliflərin verilməsi;

3.3 Kompüterdə görülən işlər və resursların istifadəsi ilə bağlı İT şöbəsinə kömək üçün müraciət edilməsi.

IV Proqram-aparat kompleksinin istifadəsi üzrə istifadəçilərə qadağandır:

4.1 Şəbəkəyə qeydiyyata alınmamış kompüterlərin qoşulması;

4.2 Virus və zərərli proqramlara qarşı yoxlanılmadan yaddaş qurğularından istifadə edilməsi;

4.3 Çirkli və qeyri-standard kağızlarda çap edilməsi;

4.4 Özbaşına proqramların (əməliyyat sistemi və s) yazılması, yenidən yazılması, dəyişilməsi, modifikasiya edilməsi və silinməsi;

4.5 İT şöbəsinin icazəsi olmadan, xidməti öhdəlikəri yerinə yetirmək üçün sanksiyalaşdırılmamış proqram təminatından istifadə edilməsi;

4.6 Məxfi xarakterli elektron sənədlərdən digər istifadəçilərin (həmin sənədlə tanış olmağa səlahiyyəti çatmayan) istifadəsinə şərait yaradılması, həmin sənədlərin digər şəxslərə (həmin sənədlə tanış olmağa səlahiyyəti çatmayan) əlçatan edilməsi;

4.7 Şəbəkə vasitəsilə vətəndaşların şərəf və ləyaqətini təhqir edən məlumatların yayılması və ya yayılmasına şərait yaradılması;

4.8 İT şöbəsinin icazəsi olmadan kanalların yüklənməsinə səbəb olacaq kanalhəcmli resurlarla işlənməsi (real video, real audio, çat və s)

4.9 İstifadəçiyə həvalə olunmuş kompüter və ofis texnikasından kənar şəxslərin istifadəsi üçün şərait yaradılması (İT şöbəsinin məsul işçiləri istisna olmaqla)

4.10 Kompüterin işinə, şəbəkə qurğularına və şəbəkə resurslarına təsir göstərəcək əməliyyat sistemi və proqram tənzimləmələrinin özbaşına dəyişilməsi;

4.11 Sənədlərin onun üçün nəzərdə tutulmayan qovluqlarda saxlanılması;

4.12 Digər xidməti iş yerinə keçirildikdə şəbəkəyə aid olan qurğuların aparılması;

4.14 Şəbəkədə istifadəçi kompüterlərinə qanunsuz daxil olmağa və qurğulardan istifadəyə cəhd edilməsi;

4.15 Proqram və aparat təminatından qeyri-xidməti, kənar məqsədlər üçün istifadə edilməsi;

4.16 Kənar şəxslərə ATMU-nun informasiya sistemləri, o cümlədən, əməliyyat sisteminin tipi, kompüterin modeli, ümumi şəbəkə resurslarının adlarının yayılması;

4.17 İnternet və poçtdan qeyri-xidməti məqsədlər üçün istifadə edilməsi;

4.18 Korporativ yazışmalar üçün şəxsi e-poçt hesabından istifadə edilməsi;

4.19 Mənbənin etibarlılığına əminlik olmadıqda poçt məktublarına birləşdirilmiş faylları (*.msi,*.vbs,*.pif,*.bat,*.exe,*.com,*.doc(x),*.xls(x),ppt(x) və s) açmaq və ya işə salınması;

4.20 İT şöbəsinin razılığı olmadan kənar poçt servislər və saytlardan (portallar) istifadə edilməsi;

4.21 Kompüterdə qovluqları açıq, nəzarətsiz, hesab kilidini aktiv etmədən iş yerinin tərk edilməsi;

4.22 Kompüter, printer, skaner, şəbəkə və s. periferik qurğuların sökülməsi, açılması, hissələrə ayrılması;

4.23 İş yerində texniki avadanlıqların yaxınlığında qida qəbul edilməsi;

4.24 Məlumat ötürmə və qəbul etmə funksiyasına malik qurğuların (modem, mobil telefon, akcess point, datakart və s) kompüterlərlə əlaqələndirilməsi;

4.25 Özbaşına olaraq kompüterlərin, printerlərin, skanerlərin, noutbukların, şəbəkə qurğuları ilə əlaqələndirilməsi;

4.26 Kompüter və digər qurğulara texniki xidmət göstərilməsi üçün İT şöbəsinin icazəsi olmadan mütəxəssisin cəlb edilməsi;

4.27 Kompüter və periferik qurğuların hər hansı bir məqsədlə iş yerindən kənara aparılması;

4.28 Kompüter və periferik qurğuların istifadə qaydalarından kənara çıxmaqla zədələnməsi.

V Proqram-aparat kompleksinin istifadəsi üzrə məsuliyyət

5.1 İstifadəçinin qorunan məlumatların məhv edilməsi, bloklanması, modifikasiyası və ya kopyalanması, kompüterin, kompüter sisteminin və ya şəbəkəsinin işinin pozulmasına və zədələnməsinə görə müvafiq qaydada məsuliyyət daşıması;

5.2 Bütün uyğunsuzluqlar və çatışmazlıqların müvafiq şöbə tərəfindən aktlaşdırılması və məsul şəxsin məsuliyyətə cəlb olunması;

5.3 Fərdi məlumatların toplanılması, saxlanılması və üzərində işlənilməsi zamanı müvafiq qanunvericilik aktlarına uyğun olaraq müəyyən informasiya sistemi və texniki sənədləşmənin tələb olunması;

5.4 Digər üsul və qaydalarla fərdi informasiyanın toplanılması, saxlanılması, fərdi məlumatlar üzərində aparılan əməliyyatlar (fərdi məlumatların yazılması, sistemləşdirilməsi, təzələnməsi, dəyişdirilməsi, çıxarılması, adsızlaşdırılması, saxlanması, ötürülməsi, məhv edilməsi) və s. qanunvericiliklə məsuliyyətin yaradılması.

VI Kompüterdə işin yekununa dair təhlükəsizlik:

6.1 İş günün sonunda kompüterin müvafiq qaydada söndürülməsi, FQM-nin (fasiləsiz qida mənbəyi) sönülü vəziyyətə gətirilməsi və qurğuların elektrik şəbəkəsindən ayrılması;

6.2 Kompüter və digər periferik qurğuların ətrafının səliqəyə salınması, tələb olunarsa təmizlik işlərinin həyata keçirilməsi;

6.3 İş zamanı qeydə alınmış qəza və nasazlıqlar barədə İT şöbəsinə məlumatın verilməsi.